# Azərbaycan problemi özü həll etməli oldu



**Prezident, Ali Baş Komandan İlham Əliyevin 20 oktyabr tarixli xalqa müraciətində qeyd etdiyi kimi, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı bütün aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq edib və ərazi bütövlüyümüzün təmin edilməsi üçün hüquqi baza hazırlayıb.**



BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar Azərbaycan rəhbərliyinin qətiyyətli səyləri nəticəsində ərazi bütövlüyümüzü tanıyan qətnamələr qəbul edib. Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilib. Bütün bunlar münaqişənin həlli üçün hüquqi əsaslardır. Lakin təcavüzkar Ermənistanın siyasi oyunbazlığı və işğalçılıq siyasətindən əl çəkməməsinin nəticəsində 30 ilə yaxın səbir nümayiş etdirən xalqımız artıq haqq işi olan ərazi bütövlüyü məsələsini özü həll edir.

Azərbaycan Ermənistanın hərbi təxribatına cavab olaraq döyüş meydanında aşkar üstünlük göstərərək düşmənin dəyişilməz saydığı status-kvonu ləğv edib. BMT Təhlükəsizlik Şurasının 1993-cü il noyabrın 12-də qəbul etdiyi 884 saylı qətnamədə Azərbaycanın Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı pislənilir, işğalçı qoşunların həmin ərazilərdən, eləcə də ATƏT-in Minsk qrupunun iclasında razılaşdırılmış "BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 saylı qətnamələrini icra etmək üçün təcili addımlara dair yenilənmiş vaxt cədvəli"nə uyğun olaraq Ermənistan qoşunlarının Azərbaycanın zəbt edilmiş digər ərazilərindən çıxarılması tələb olunur.

Təhlükəsizlik Şurasının bu qətnamələri 30 ildir ki, kağız üzərində qaldı. Ermənistan beynəlxalq hüququ və Təhlükəsizlik Şurasının qətnamələrini ayaq altına ataraq öz qoşunlarını nəinki Azərbaycan ərazilərindən çıxarmadı, əksinə, işğalı möhkəmləndirmək və yeni ərazilər işğal etmək yolunu tutdu. Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri başda olmaqla, BMT və beynəlxalq ictimaiyyət tərəfindən işğalçı Ermənistana heç bir təzyiq göstərilmədi.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanı işğal etdiyi ərazilərdən çıxmağa məcbur etmək üçün ona sanksiyaların tətbiq olunmasının vacibliyini dəfələrlə vurğulayıb. Ermənistana qarşı təzyiqlərin olmaması bu ölkənin özünü cəzasızlıq mühitində hiss etməsinə gətirib çıxardı. Ən maraqlısı da odur ki, Təhlükəsizlik Şurasının qətnamələri son vaxtlar BMT-nin və Minsk qrupunun həmsədr ölkələrinin heç yadına da düşmürdü. Müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar qətnamələrə istinad etdikləri halda, onlar həmin sənədləri heç yada da salmırdılar. Başqa sözlə desək, BMT Təhlükəsizlik Şurasının qətnamələrindən BMT-dən başqa hamı danışırdı.

Bütün bunlar isə Ermənistanın müxtəlif hiylə və bəhanələrlə danışıqları uzatmaqla düşmən tərəfdə, guya, Azərbaycanın işğal faktı ilə barışmağa məcbur edəcəyi təsəvvürü yaradırdı. Son 26 gündə azad edilmiş ərazilərdə Ermənistanın yaratdığı çoxqatlı istehkamlar, müxtəlif fəaliyyətlər və əhali məskunlaşdırma faktları bir daha göstərdi ki, işğalçı ölkə bu əraziləri qətiyyən geri qaytarmaq fikrində olmayıb.

Beynəlxalq qurumların qətiyyətsizliyi nəticəsində Dağlıq Qarabağ münaqişəsini nəhayət, Azərbaycan özü həll etməli oldu.

26 illik səmərəsiz atəşkəs və faydasız danışıqlardan sonra Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə cavab olaraq başladığı əks-hücum əməliyyatları ilə Füzuli, Cəbrayıl və Zəngilanı işğaldan azad etməklə Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etdi. Beləliklə, bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu beynəlxalq hüququn kağız üzərində olan tələbini və ədalətini əməldə təmin edir. Beynəlxalq hüququn ali prinsiplərini Ermənistanın tapdağından xilas etmək mübarizəsinə görə bəşəri ədalətə sadiq qalan dünya birliyi Azərbaycana minnətdar olmalıdır.

Azərbaycan torpaqlarının düşmənin başını əzərək geri qaytarılması və ərazi bütövlüyümüzün bərpa edilməsi kimi vəzifələr bu gün döyüş meydanında həll olunur. Xalqın Ali Baş Komandana olan inamı dövlət siyasətinin gücünü artırır və daha səmərəli edir. Xalq tərəfindən göstərilən etimad böyük qələbəmizi yaxınlaşdırır. Təəssüf ki, Ermənistan öz çirkin niyyətlərini hələ də davam etdirir. Dinc mülki əhaliyə qarşı kütləvi ölüm silahlarından atəş açılması namərdlikdir və hərbi cinayətdir. Namərd zərbələr nəticəsində dinc əhali, o cümlədən uşaqlar, qadınlar və qocalar həlak olur.

Bugünlərdə YAP-ın aparat rəhbərliyi və bir qrup həmkarımla birlikdə Gəncədə hadisə yerində olduq, yaralılara baş çəkdik. XXI əsrdə dəhşətli mənzərənin şahidi olduq. Bütün dünya düşmənlərimizin mənfur və vəhşi simasını artıq görür. Gecə vaxtı, qəsdən mülki əhaliyə qarşı törədilmiş cinayət erməni faşizmin təcəssümüdür. Dünən Ermənistan yenə də Azərbaycan münaqişə zonasından xeyli uzaqda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən bölgələrinə ballistik raket atəşinə tutdu. Bu cinayətkar hücum erməni baş nazir Paşinyanın münaqişənin diplomatik həllinin olmadığına dair bəyanatının davamıdır. Cinayətkar və dünyaya yalan danışan Ermənistanın siyasi hakimiyyəti öz dövlətçiliyin sonunu yaxınlaşdırır.

Xalqımız əmindir ki, milli birlik və həmrəyliyimizlə qarşıda duran məqsədlərə qısa müddət ərzində nail olmağa əlverişli imkan yaranıb. Azərbaycan torpaqlarının geri qaytarılması, ərazi bütövlüyünün bərpa edilməsi kimi ümummilli tarixi vəzifə bu gün döyüş meydanında həll olunur.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***

Xalq qəzeti 2020.- 23 oktyabr.- S.8.